# Aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz müsbət nəticəsini verməkdədir

**2019-cu ilin iqtisadi uğurları artıq özünü açıq şəkildə göstərir. Belə ki, cari ilin 6 ayında sosial-iqtisadi göstəricilər ötən ildəkindən xeyli yüksəkdir. İqtisadiyyatımızdakı artım bu ilin altı ayında 2,4 faiz olub. Xüsusilə qeyri-neft sektorunda artım 3,2 faizi ötüb. Bu faktın özü bir daha göstərir ki, Azərbaycan dövləti neft asılılığından özünü qurtaran ölkələrin önündə gəlir.**




2019-cu ildə kənd təsərrüfatında da inkişafımız rekord həddə olub. Belə ki, bu ilin altı ayında aqrar sahədə artım 13 faiz olmuşdur. Bu istiqamətdə ən yüksək inkişaf bitkiçilikdə qeydə alınmaqla 25 faiz artım reallaşıb. Bütün bunlar bir daha onu təsdiq edir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, bu istiqamətdə aparılan ciddi islahatlar öz uğurlu nəticələrini verməkdədir. Xüsusilə sahibkarlara göstərilən dövlət dəstəyi onların problemlərinin həllinə əhəmiyyətli şəkildə kömək edir.

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə ölkəmizin başçısı bu uğurlu nəticələrə rəğmən bildirib ki, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir: “Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək.”

Təbii ki, qeyri-neft sektorunun inkişafı və məhsul istehsalının artımı ölkəmizin yeni bazarlar qazanmasına, ixrac potensialımızın yüksəlməsinə imkanlar yaradan çox mühüm amildir. Məhz bu səbəbdəndir ki, 2019-cu ilin birinci yarısında ölkəmizin ticarət dövriyyəsi 20 faizdən çox artıb. O cümlədən iqtisadiyyatın inkişafı üçün əsas stimul olan sərmayə yatırımında da ciddi artımlar baş verib. Məhz cari ilin 6 ayında ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə yatırılıb ki, bunun da mütləq çoxluğu qeyri-neft sektoruna yönləndirilib.

Cənab Prezident müşavirədə bu uğurlu iqtisadi nəticələrin sosial sahəyə də müsbət təsirindən danışaraq bildirib ki, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir: “Çox önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir.”

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqladığı faktlara görə, Prezident İlham Əliyevin sosial yönümlü sərəncamlarına uyğun olaraq 2019-cu il oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı əsas işlər başa çatdırılıb. Bir sözlə, həmin sosial paketlərin ümumilikdə dəyəri cari il üçün 2,3 milyard manat, növbəti il üçün 3 milyard manat olmaqla 4,2 milyon vətəndaşı əhatə edir. Beləliklə, minimum əməkhaqqında demək olar ki, iki dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstərici olmaq imkanı qazanıb. O cümlədən minimum əməkhaqqı üzrə isə alıcılıq qabiliyyəti üzrə MDB məkanında ikinci yerə yüksəlmiş olacağıq.

2019-cu ilin sosial inkişafından konkret rəqəmlərlə kifayət qədər geninə-boluna danışmaq mümkündür. Belə ki, bu ilin birinci yarısında müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon vətəndaşın həyatında ciddi şəkildə müsbət diyişikliklər yaradıb. Bu sosial paketlərdən yararlananlardan 300 mindən çoxu əlillər, 500 minə qədəri məcburi köçkünlər, 100 mindən çoxu isə tələbə və gənclər olublar. Bir sözlə, bu artımlar cəmiyyətin ən həssas təbəqələrini əhatə etməklə sosial ədalətlilik prinsipinə üstünlük verilib.

Müşavirədə Prezident İlham Əliyev ölkə vətəndaşlarının özünüməşğulluq proqramının uğurla davam edəcəyinə əminliyini ifadə edib: “Bəli, biz bu məsələləri beynəlxalq maliyyə qurumları ilə də müzakirə etmişik. Dünya Bankı ilə bu ilin əvvəlində müzakirələr aparılıb və biz onları bu proqrama dəvət etdik. Dünya Bankının bu proqramda iştirakı təbii ki, bizə əlavə maliyyə resursu verəcək.”

Qeyd edək ki, 2019-cu ildə İşsizlikdən Sığorta Fondunun büdcəsinə müvafiq dəyişiklik edildi və əlavə vəsaitin cəlb olunması nəticəsində 10 min ailənin bu il Özünüməşğulluq Proqramı ilə əhatə edilməsinə başlanılıb. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin müşavirədə də qeyd etdiyi kimi, bu istiqamətdə müraciətlər çoxdur və əhalinin bu proqrama çox böyük marağı, çox böyük rəğbəti var: “ Cari ilin ilk 6 ayı ərzində 45 minə yaxın müraciət gəlib. Bunları nəzərə alaraq, ötən ildən növbədə qalan insanlara və bu il müraciət edənlərin arasında isə əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyadan olan digər insanlara üstünlük verilir. Artıq 4 min nəfər bu il təlimlərdən keçirilib, 1100 nəfər aktivlər əldə edib. Əlavə olaraq BMT-nin İnkişaf Proqramı layihəyə cəlb olunub, 1000 nəfərə yaxın ailə məhz BMT-nin İnkişaf Proqramı tərəfindən təmin ediləcəkdir.”

Təbii ki, 2019-cu ilin uğurlu sosial-iqtisadi nəticələrindən danışanda ölkəmizdə yeni qurulan infrastruktur layihələrini qeyd etmək lazım gəlir. Xüsusilə cari ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilən dördüncü Dövlət Proqramının icrası uğurla davam edir. Prezident İlham Əliyev müşavirədə sözügedən Proqramın əhatə dairəsi barədə bildirib ki, bu, çox genişmiqyaslı proqramdır: “Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülmüşdür, bu günə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaq. Bildiyiniz kimi, bu sahə bizim üçün prioritet sahədir. Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr var. Beləliklə, Azərbaycanda qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırma aparılır. Elektrik enerjisi ilə bağlı böyük generasiya gücləri yaradılmışdır və Azərbaycan bu baxımdan yenə də ön sıralardadır. Çünki biz öz enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Bu il mövcud stansiyalarda aparılan yenidənqurma işləri nəticəsində əlavə generasiya gücü əldə ediləcək. Bütün bölgələrimizdə içməli su layihələri icra edilir və bu il də bir neçə şəhərin içməli su problemi həll olunacaq. Buna da çox böyük diqqət göstərilir. Hər il təxminən 100 min hektar torpağın suvarılması ya yaxşılaşır, ya da ki, suvarılmayan torpaqlara su çəkilir. Bu da çox önəmli məsələdir və bu məsələ ilə bağlı əlavə addımlar atılacaq.”

Azərbaycan iqtisadiyyatının modern sahəsi hesab edilən aqroparklar da müşavirənin əsas mövzusu olub. Qeyd edək ki, bu günə qədər regionlarda 9 sənaye parkı və məhəlləri yaradılaraq fəaliyyətə başlayıb. Həmin parklara və məhəllələrə 6,4 milyard manatlıq sərmayə ayrılıb. Sevindirici digər rəqəm isə odur ki, bu aqroparklarda 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda, həmin layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəlib.

Təbii ki, bütün bu uğurlar ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar nəticəsində reallaşıb. Həmin islahatlar beynəlxalq iqtisadi təşkilatlar və maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilib. Müşavirədə cənab Prezident bu uğurlara da diqqət çəkib: “Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının “Doing Business” proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir.”

İnfrastruktur layihələrin gələn illərdə də davam etdirilməsinin anonsunu da cənab Prezident müşavirədə verdi. Onun sözlərinə görə, bundan sonra da onlarla məktəb tikiləcək, 10 şəhərdə mərkəzi xəstəxana yenidən tikiləcək, yaxud da əsaslı təmir olunub istifadəyə veriləcək: “Olimpiya kompleksləri - 3 Olimpiya Kompleksinin açılışı nəzərdə tutulur, biri artıq açılıb. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapır.”

Təbii ki, bütün bu uğurların müəllifi Prezident İlham Əliyevdir. Məhz cənab Prezidentin qətiyyətli sosial siyasəti, xalqsevərliyi və xarizmatik idarəetmə bacarığı ölkəmizi daha böyük hədəflərə çatdıracaqdır.

**Elçin Zaman,**
***“İki sahil”***